BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 05 (05) MART (MART) 2006

# QƏRB FƏLSƏFƏSİNDƏ İSLAMA İKİ FƏRQLİ MÜNASİBƏT

*Prof. Selahaddin Xelilov*[1]

**Summary**

**Two Different Attitutes to The İslam in West Philosophy**

**There are two different positions among Western qhilosophers; the first –who believe God, the second who doesn't believe God. Some West philosophers's view about unity of God is the same as İslam philosophers. For example, N.Kuzanski doesn't admit the faith of trinity. According to his opinion God is one and endless. Many of philosophers admit the unity of God in their conscience. But due to their living conditions and religious traditions they can't refuse the faith of trinity.**

Con Lokkun dini ideyalarının xristianlıqdan daha çox islama yaxınlığı heç də onun özünün islama münasibəti kimi dəyərləndirilməməlidir. Qərb filosofları, bir qayda olaraq, təfəkkürün gücü ilə Vəhdət ideyasına yaxınlaşsalar da, konkret dini mənsubiyyətlərindən də vaz keçmir, yeri gələndə öz ideallarının ziddinə olaraq dinə azad münasibətlərini, hətta kinlərini də islama ünvanlayırlar.

Kütləvi şüur səviyyəsində yayılan və neçə əsrlər ərzində təhriflərə məruz qalan xristianlıq Vəhdət ideyası üzərində qurulmuş böyük fəlsəfi sistemlərlə uzlaşmasa da, bir çox filosoflar və hətta din nəzəriyyəçiləri, dini xadimlər xristianlıqda da Vəhdət ideyasını önə çəkməyə çalışmışlar. Bu, əslində hələ təhrif olunmamış xristianlığın, – İsa peyğəmbərə nazil olmuş həqiqi xristianlığın mövqeyidir. Xristian dünyasının böyük filosofu Foma Akvinski Allah ideyasının əsaslandırılmasını dini

[1] Azarbaycan Üniversiteti Rektoru

inamdan fərqli olaraq elmi-fəlsəfi fikrin vəzifəsi hesab etmişdir. Fəlsəfi düşüncə isə, heç şübhəsiz Vəhdət ideyasından çıxış edir. Görünür, buna görədir ki, Allah ideyasına münasibətdə xristianlığı təmsil edən böyük filosoflarla müsəlman filosofları arasında ciddi fikir ayrılıqları tapmaq çətindir. Maraqlıdır ki, həm xristianlar, həm də müsəlmanlar öz teoloji sistemlərini qurmaq üçün elmi-fəlsəfi baza kimi antik fəlsəfi fikirdən, xüsusən Platon və Aristotel təlimlərindən istifadə edirlər.

Vahid və ya Vəhdət ideyası bütün həqiqi dinlər kimi, həm də bütün həqiqi fəlsəfi təlimlərin əsasında dayanır. Aristotel təlimi də məntiqi olaraq «bütün formaların ən ali forması», «bütün mahiyyətlərin ən ümumi mahiyyəti», «bütün səbəblər üçün ilkin səbəb», «bütün hərəkətlər üçün ilk təkan» zərurətinə – vahid Allah ideyasını gətirir.[2] Foma Akvinski də bütün bu keyfiyyətlərin yalnız Allaha aid olduğunu, Allahın ən böyük kamillik dərəcəsinə və yaradıcı qüdrətə malik olduğunu qeyd edir. «Allah vahid olmaya bilməz… O, kamilliyin ən yüksək səviyyəsidir. Onda çatmayan heç nə yoxdur. İkinci ən ali kamillik də ancaq onun eyni ola bilər; onda bunların arasında heç bir fərq olmaz. Deməli, Allahın çoxluğunu qəbul etmək düz deyil». Hətta fəslin adı da «Allahın vahidliyi haqqında»dır.[3] Deməli, Foma Akvinski də islamın birinci əsas prinsipini – Allahın vahidliyini qəbul edir və onun əsərlərindən İsanı Allah səviyyəsinə qaldırmaq təşəbbüslərinin qəbuledilməzliyi hasil olur.

Bu mövqeyi xristianlığın digər böyük nümayəndəsi, kardinal və yepiskop çinlərini qazanmış Nikolay Kuzanski də müdafiə edir. N.Kuzanskinin Allahın vahidliyi haqqında mülahizələri xristian teoloqlarından daha çox, islam ilahiyyatçılarının, ilk növbədə əl-Qəzalinin təliminə uyğun gəlir. O, Allahı yeganə həqiqət kimi qəbul edir və «həqiqət birdirmi, yoxsa çoxdurmu?» sualına – «ancaq bir həqiqət var və o Vahidlə (vəhdətlə) üst-üstə düşür», – cavabını verir.[4] N.Kuzanski Allahı varlığın və heçliyin yeganə mənbəyi və yaradıcısı hesab edir.

---

[2] Антология философии средных веков и эпохи возроъдения. М.,«Олма-Пресс»,2001, стр.200.

[3] *Фома Аквинский.* Сумма против язычников. Книга первая. Долгопурудный. 2000, стр. 193.

[4] *Николой Кузанский.* Сочинения в двух томах. Т 1, М., «Мыслы», 1979, стр. 284.

«Allah hər hansı şeydən və *heç şeydən* üstündür, çünki *heç şey* hər hansı şeyə çevrilməklə ona tabe olur».[5]

Təbii ki, Allahın vahidliyi ideyasından çıxış edən N.Kuzanski xristianlığın bəzi qollarında, təriqətlərində yayılmış «üçlük» təlimini qəbul etmir. Kuzanski yazırdı ki, əgər Allah sonsuzdursa, onun üç sifətindən necə danışmaq olar? «… Allah nə Ata, nə Oğul, nə də Müqəddəs Ruhdur, o ancaq sonsuzluqdur».[6]

Üçlük təliminin İsa peyğəmbərin öz dedikləri ilə əlaqədar olmaması və sonradan uydurulması N.Kuzanskidən çox-çox əvvəl müsəlman dinşünasları tərəfindən dönə-dönə qeyd edilmişdir ki, onların da əsas istinad mənbəyi Qurani-Kərimdir. Bütün peyğəmbərlər və bütün müqəddəs kitablar ilk növbədə bir böyük ideyanı – Vahid yaradıcı ideyasını tərənnüm edirlər. Qurani-Kərimdə bütün peyğəmbərlrin təlqin etdiyi ideyalar vahid bir inancın ifadəsi kimi dəyərləndirilir. Musaya nazil olan və İsaya nazil olan kitablar da eyni bir müqəddəs kitabın hissələridir. Quran onları (təhrif olunmamış variantda) təsdiqləyir və onlara yekun vurur. Və bu Yekun bütün əvvəlki kitabların mahiyyətini və əsas məzmununu ehtiva edir.

Qurani-Kərimin bizə gəlib çatan yazılı mətni peyğəmbərin bilavasitə tələffüz etdiyi mətnə demək olar ki, tam adekvat olduğundan və 1400 il ərzində heç bir dəyişikliyə məruz qalmadığından onun orijinala yaxınlıq dərəcəsi Tövrat və İncilə nisbəitən çox yüksəkdir. Yəni Musaya və İsaya nazil olan müqəddəs kitablar birbaşa köçürülmədiyindən və 100 illər ərzində təhriflərə məruz qaldığından onların ilkin deyim formasına-müqəddəs kitaba adekvatlıq dərəcəsi xeyli aşağıdır. Müxtəlif versiyalar tam üst-üstə düşmür və bunlardan hansının orjinala daha uyğun olduğunu aydınlaşdırmaq çox çətindir. Bu baxımdan Quranda Musa və İsa haqqında deyilənlər olduqca mühüm əhəmiyyətə malikdir.

Qurani-Kərimdə Musaya və İsaya nazil olan kitablardan danışıldıqda təhriflərə məruz qalmamış ilkin variant nəzərdə tutulur. Lakin Məhəmməd peyğəmbərin vaxtında İncilin artıq qələmə alınmış variantları var idi və xristianlıq bir din kimi bu təhriflər üzərində

[5] Yenə orada, səh. 285.
[6] Yenə orada, səh. 20.

qurulmuşdu. İndi əsas məqsəd İsa peyğəmbərin missiyasını düzgün anlatmaq, onun statusunu, missiyasını təhrif edən, onu allahlaşdırmağa çalışan qüsurlu şərhləri aradan qaldırmaq idi.

Qurani-Kərimin əl-Maidə surəsində deyilir: ««Allah üçün (*üç ilahinin*) üçüncüsüdür!» – deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur».[7] İslamda İsa ancaq bir peyğəmbər kimi, Məryəm isə pak bir qadın kimi tanınır: «Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak bir qadın idi». Peyğəmbər isə nə qədər şərafətli olsa da, Allah yox, insandır və onun insan, yəni həm də cismani varlıq olmasının ən bariz əlamətlərindən biri, başqa insanlar kimi yeyib-içməsidir: «Onların hər ikisi (*adi insanlar kimi*) yemək yeyirdi».[8] Daha sonra xristianlıqda yayılmış bu səhv təsəvvürün İsadan sonra, ancaq onun dediklərini təhrif etmək sayəsində ortaya çıxdığı da qeyd olunur: «(*Ya Rəsulum!*) Xatırla ki, o zaman (*qiyamət günü*) Allah belə buyuracaq: «Ya Məryəm oğlu İsa! Sənmi insanlara: «Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!» – demişdin? (*İsa cavabında*): deyəcək: «Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu mən demiş olsaydım, sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, mən isə Sənin zatında olanı bilmirəm». Daha sonra: «Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: «Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!» Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. (*Onları belə nalayiq hərəkətlər etməyə qoymurdum*). Sən məni (*göyə qaldırıb dərgahına*) qəbul etdikdən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən!».[9]

Göründüyü kimi, Qurani-Kərimdə əsl xristianlığın, İsaya göndərilmiş kitabın vəhdət ideyasını tərənnüm etdiyi göstərilir. Başqa bir surədə bu dinlərin (yəhudi, xristianlıq və islam) əslində eyni bir Tanrıdan bəhs etdiyi vurğulanır: «Deyin: «Biz həm özümüzə nazil olana (*Qurana*), həm

---

[7] Qurani-Kərim. B., «Çıraq», 2004, səh. 187 (Əl-Maidə surəsi, 73-cü ayə).
[8] Yenə orada, 75-ci ayə.
[9] Yenə orada, 116 və 117-ci ayələr.

də sizə nazil olana (*Tövrata və İncilə*) inanırıq. Bizim də Tanrımız, sizin də Tanrınız birdir. Biz Ona təslim olanlarıq!».[10]

Xristianlığın Nikolay Kuzanski kimi mütəfəkkir xadimləri bu həqiqətləri bilməyə bilməzdi. Və o, həqiqəti o dövrdə artıq dərin kök atmış qüsurlu ənənədən üstün tutaraq, əsl xristianlığa və deməli, əslində İbrahim dininə, sözün geniş mənasında islama pənah gətirir. O, əlbəttə, öz ideyalarını xristianlıq bayrağı altında irəli sürür, amma fərqi yoxdur, ideya – Vahid Yaradan, vəhdət ideyasıdır.

Vəhdət ideyasının, mütləq ruh təliminin ən böyük nümayəndələrindən biri olan Hegel də, sağlam düşüncə baxımından, vahid Allah ideyasından çıxış etməli və xristianlığın «üçlük» təliminə qarşı çıxmalı idi. O, doğrudan da tanrı olaraq məhz Vahidi qəbul edir. Amma təəssüflər olsun ki, bəzən Hegeldə də dini təəssübkeşlik hiss olunur. Bununla belə, həqiqi fəlsəfi təhlil məqamlarında o, öz fəlsəfi vicdanını hər şeydən üstün tutmuşdur.

Hegel «Vahid» ideyasını hərtərəfli təhlil edərək, onun dəqiq statusunu müəyyənləşdirməyə çalışır. O yazır ki, tanrının tək, vahid olması ilə vahidin, Vəhdətin tanrı olması haqqında fikirlər əslində fərqlidir. Birinci halda, tanrı subyekt kimi götürülür və vahidlik tanrının predikatlarından biri olur. Tanrının ancaq tək ola bilməsini sübut etmək çətin deyil. Lakin digər halda söhbət vahidin bir varlıq kimi götürülməsindən gedir. Fikrini əsaslandırmaq üçün Hegel Parmeniddən iqtibas gətirir: «Ancaq varlıq vardır», yaxud ancaq Vahid vardır.[11] Göründüyü kimi, Hegel «Allahın vahidliyi» məsələsinə məntiqi baxımdan iki müxtəlif baxışın fərqini ayırd edir; o, Allah ideyasına dünyanın vəhdətindən çıxış edərək gəlir və bu vəhdətin sonradan Allah ideyası ilə eyniləşdirilməsi, əslində daha çox dərəcədə panteist bir yaxınlaşmadır. Monist baxışa görə tanrı varlığın fövqündə dayandığı halda, panteist baxışa görə, tanrı elə varlığın (Vahidin) özüdür. Hegel məhz ikinci mövqedə dayandığını gizlətmir. (Hegelə məxsus olan *idealist panteizmin* spesifikası isə *varlığın* necə anlaşılmasında üzə çıxır). O, yazır: «Tanrının *predikatlarını* sübut etmək anlayışın işi deyil, bu yolla tanrı

---

[10] Qurani-Kərim. B., «Çıraq», 2004, səh.

[11] *Гегель*. Философия религии. В двух томах. Т 2, М., «Мыслы», 1977, стр. 59.

fəlsəfi baxımdan dərk oluna bilməz. Bu anlayışın həqiqi mənası əslində tanrının *Vahid* olmasından yox, Vahidin *tanrı* olmasından ibarətdir, belə ki, Vahid hansı isə bir predikat olmayıb, mahiyyəti bütövlükdə ehtiva edir».[12]

Hegel islam və xristianlığı da məhz vəhdət, vahid tanrı ideyasından çıxış edərək fərqləndirməyə çalışır. Əlbəttə, ilk nəzərə çarpan fərq xristianlıqdakı «üçlük» təlimidir. Hegel Nikolay Kuzanskidən fərqli olaraq «üçlüyə» açıq münasibətini bildirmir – o, ənənəvi xristianlıq təəssübkeşidir. Bununla belə, Hegel səviyyəsində bir filosof «vahid Allah» məsələsində islamın daha ardıcıl və fəlsəfi baxımdan daha məqbul bir mövqe tutduğunu görməyə bilməzdi.

Hegel yazır ki, məhəmmədi (islam) dinində subyekt özündən imtina edir və vahid Allaha pərəstişdən başqa qarşısına heç bir obyektiv məqsəd qoymur. Yəhudilərdən fərqli olaraq burada öz millətinin əlahiddəliyi önə çəkilmir. Allahın hüzurunda bütün insanlar bərabərdir; subyektin ictimai vəziyyəti və dərəcəsi, qul və ya mötəbər bir şəxs olması önəm daşımır. Hamının əsas məqsədi öz xüsusiyyətlərindən, şəxsi keyfiyyətlərindən və maraqlarından azad olaraq ilahi vəhdətə qovuşmaqdır.[13] İslamın bu cür şərhi görünür, Hegelin təsəvvüf fəlsəfəsi ilə tanışlığından irəli gəlir. Lakin islamın həm də bir şəriət rolunu oynaması, möminlərin həyatında konkret bir təlimat kimi çıxış etməsi nəzərə alınmır. Məhəmmədin dini xristianlığa nisbətən daha abstrakt bir din kimi, əslində mücərrədliyin ən yüksək səviyyəsi kimi dəyərləndirilir.

Fəlsəfi baxımdan bir qüsur kimi, təhrif kimi qiymətləndirilməli olan «üçlük», «üçvəhdət» məsələsini Hegel, əksinə, xristianlığın islama nəzərən daha konkret olmasına bir dəlil kimi təqdim etməyə çalışır.[14] Sən demə, insanın Allaha münasibətinin konkretləşməsi üçün belə bir vasitələnməyə ehtiyac var imiş. Halbuki, insan ilə Allah arasında hansı isə vasitəçi İnstitutların («üçlük» və ya kilsə, keşiş) olması heç də hisslərin konkretləşməsinə deyil, Vahiddən ayrılmasına xidmət edir. Bunu, heç şübhəsiz, Hegel özü də başa düşürdü. O yazır:

[12] Yenə orada, səh. 62.
[13] Yenə orada, səh. 327.
[14] Yenə orada.

«…Məhəmmədiliyə (islama – *S.X.*) görə, Allah *konkret deyil* və hər hansı bir məzmuna malik deyil. Beləliklə, burada tanrının cismani təzahürü, İsanın Allahın Oğlu səviyyəsinə yüksəlişi, dünyanın hüdudluluğunun aydınlaşması və tanrının sonsuz özünüdərkinə qədər davam edən özünüdərk yoxdur. Xristianlıq burada ancaq təlimdir, İsa isə Allahın elçisi kimi, ilahi müəllim kimi, yəni Sokrata bənzəyən lakin ondan üstün olan (belə ki, o günahsızdır) bir müəllim kimi çıxış edir».[15] Beləliklə, Hegel əslində İsanı ancaq peyğəmbər kimi qəbul edir və dini-mənəvi yüksəliş zamanı möminlərin İsanı «Tanrının Oğlu» səviyyəsinə qaldırmalarını Hegel bir növ sufi fəlsəfəsində tərənnüm olunan İsanın ilahi yüksəlişi mənasında təqdim edir. Bununla da, xristianların xətrinə dəymədən bütövlükdə və tamamilə Qurani-Kərimdəki versiyanı təkrar edir: «İsa ya *ancaq* insan, ya da – «bəşər Oğlu» idi. Deməli, ilahiləşdirilmiş tarixdən heç nə qalmır və İsa haqqında Quranda necə deyirlirsə, o cür deyilir».[16]

Bəli, fəlsəfənin məntiqi, zəkanın gücü həqiqətə gətirməli idi və Hegel də nəhayətdə Quranda deyilənlərə gəlib çıxır. Sadəcə olaraq Hegelin bilgilərinin əsasən təsəvvüflə məhdudlaşması ona daha bir addım atmağa və islamın həqiqət mövqeyini bütövlükdə qəbul etməyə imkan vermir. O bir daha qeyd edir ki, xristanlığın bu cür (yəni Qurandakı kimi) dərk edilməsi islamdan ancaq onunla fərqlənir ki, məhəmmədilər (müsəlmanlar) bütün məxsusi olanlardan, hər cür həzzdən və bilikdən, bütün bihudə olanlardan imtina edirlər.[17] Halbuki, islam, əksinə, xristianlıqdan və bəzi hind dini təlimlərindən fərqli olaraq asketizmi yox, cismani və ruhani həyatın vəhdətini tərənnüm edir.

Foma Akvinskinin, Nikolay Kuzanskinin, Qötenin, və nəhayət, Hegelin fikirlərinin təhlili göstərir ki, istənilən ciddi fəlsəfi təhlil vahid Allah ideyasına və Qurani-Kərimin həqiqətlərinə gətirir.

Lakin təəssüf ki, bir çox Qərb filosofları bu həqiqətə açıq münasibət bəsləməkdən çəkinmiş və xristianlığın bəzən Vahid Yaradan ideyasından uzaqlaşmasına sadəcə göz yummuşlar. Fəlsəfi vicdanları onları vahid

[15] Yenə orada, səh.328.
[16] Yenə orada.
[17] Yenə orada.

Tanrı ideyasına gətirsə də, yaşadıqları mühitin dini ənənələrinə sadiq qalmağa çalışmış və guya xristianlığın ideoloqu kimi çıxış etdiklərini zənn etmişlər. Özlərinin fəlsəfi həqiqətlə uzlaşmayan dini müddəalara qarşı kin-küdurətini isə çox vaxt «öz dinlərinə» qarşı deyil, məhz vəhdət ideyasından çıxış edən islama münasibətdə büruzə vermiş, bu din haqqında ya məlumatlarının azlığından, ya da məqsədyönlü surətdə təhriflərə yol vermişlər.

Təəssüf ki, müasir Qərbin kütləvi şüurunda və hətta bəzən siyasi mövqeyində islama birtərəfli və qüsurlu münasibətin rəhbər tutulmasında fəlsəfə klassiklərinin də rolu az olmamışdır.

Əgər A.Dantenin «İlahiyyət komediyası»nda bütün böyük müsəlmanların cəhənnəmdə təsvir olunması bir şairin bədii təxəyyülünün məhsulu hesab edilə bilsə də, F.Bekon və F.Volter kimi böyük filosofların islama, Məhəmməd peyğəmbərə əsassız hücumlarına anlaşıqlı yanaşmaq çox çətindir. Bütün yaradıcılığı boyu təcrübi biliklərdən, rasional düşüncədən və sağlam məntiqdən çıxış edən filosofların islamla bağlı emosiyaya qapılmaları və heç bir fakta və məntiqə söykənməyən həcvlər yazmaları çox təəccüblüdür (*Görünür, o vaxtlar Kilsənin ideologiyası və təbliğatı filosofların məntiqindən daha güclü olmuşdur*).

F.Bekon dini əqidənin qılınc gücünə, zorla deyil izahat və təbliğatla yayılması zərurətindən danışarkən xristianlığı mələk donunda təsvir etdiyi halda, Məhəmmədin guya ruhani və mədəni yollarla deyil, qılınc gücünə din yaydığını iddia edir.[18] Halbuki, Məhəmməd peyğəmbər kitab əhlinə, yəni yəhudi və xristianlara heç bir güc tətbiq etməmiş, azad seçim imkanı vermişdir. Və əksinə, xristianlar dəfələrlə əllərində qılınc islam ölkələrinə səlib yürüşləri təşkil etmişlər. Bu cür sadə tarixi həqiqətlər F.Bekon kimi savadlı bir adama doğrudanmı məlum deyildi?

Yaxud başqa bir misal. O, islam aləmində geniş yayılmış bir hədisi təhrif edərək peyğəmbərin «Nə olar, dağ Məhəmmədin yanına gəlməzsə, Məhəmməd dağın yanına gedər», – sözlərini guya Məhəmmədin dağı yanına gətirmək haqqında hansı isə öhdəliyini yerinə yetirə bilməməsi

---

[18] *Ф.Бэкон*. Сочинения в двух томах, т. 2, М., «Мысль», 1972, стр. 358.

kimi və vəziyyətdən sadəcə diri başlıqla çıxması kimi təqdim edir.[19]

Əsasən materialist olan, empirik idrakı önə çəkən F.Bekonun dini mövzuda bəsit dünyagörüşü nümayiş etdirməsini bəlkə də anlamaq mümkündür. Amma bəs Monnteskye, bəs Volter?

Ş.Monteskye xristian və islam dinlərinin xarakterindən bəhs edərkən Məhəmməd peyğəmbəri yenə də əlində qılınc, istilaçı kimi təsvir edir.[20] Halbuki, tarixdən məlum olduğu kimi, Həzrəti Məhəmməd heç də sərkərdə və ya hərbiçi olmamış, ticarətlə məşğul olmuşdur; dünyanı fəth edən Məhəmmədin ideyaları idi. İdeya qılınca yox, qılınc ideyaya xidmət edirdi. Təsadüfi deyildir ki, xristianlıqdan fərqli olaraq islamın yayılması dinlərin azad rəqabətinə əsaslanmış və kitabı (ideyası) olan xalqlara zor tətbiq edilməmiş, sərbəst seçim imkanı verilmişdir. Görünür, Monteskye Kilsənin digər dinlərə və hətta elmə qarşı səlib yürüşlərini «unudurdu». Kilsənin mürtəce mahiyyəti B.Rassel tərəfindən gözəl açılmışdır: «Öz sözlərimə görə tam məsuliyyətlə bildirirəm ki, Kilsə kimi təşkilatlanmış xristian dini dünyada mənəvi tərəqqinin düşməni olmuş və bu gün də olmaqdadır».[21]

Marksistlərin Volter haqqında yaratdıqları az qala materialist obrazına baxmayaraq, o, dinin mahiyyətini dərk etmək sahəsində çox irəli getmiş, ruh haqqında ayrıca tədqiqat əsəri yazmış və öz mühakimələrində vahid Allah ideyasına haqq qazandırmışdır. Volter yazır ki, yaradıcı qüvvənin vahid olması zəruridir; belə ki, o, iki olsa idi təbiətdə ahəng pozulardı, amma həqiqətdə biz dünyanın daxili vəhdətinin şahidi oluruq.[22] Volter təbiətdəki hadisələrin qanunauyğunluğundan söhbət açır və belə qənaətə gəlir ki, bütün təbiətə eyni bir ali varlıq rəhbərlik edir.[23] Lakin nə üçünsə unudur ki, dünyaya bu monist baxış, təkallahlılıq xristianlıqda yox, islamda təsbit olunmuşdur.

Volter xristianlığın və Qərb fəlsəfəsinin təməllərini araşdırarkən hind fəlsəfəsinə, ilk növbədə brahmanizmə müraciət edir: «Bizim dinin qaynaqları Hindistanın dərinliklərində gizlənir və biz bu dini ancaq indi

---

[19] Yenə orada, səh. 376.
[20] *Ш.Монтескье*. О духе законов. // Религия и обшество. М., 1996, стр. 35.
[21] *Б.Рассел*. Почему я не христианин. М., Политиздать, 1987, стр. 110.
[22] *Вольтер*. Философские сочинения. М., «Наука», 1988, стр.540.
[23] Yenə orada.

qəbul etmişik».[24] Volter etiraf edir ki, qədim yunan fəlsəfəsində ruh haqqında bilgilər və ruhun yenidən başqasına köçməsi ideyası hind fəlsəfəsindən götürülüb. Volter qədim hind mənbələri olan Şasta və Vedaların təsirindən vəcdə gəlir və «Şasta»nın girişindən aşağıdakı iqtibası gətirir: «… Öz mahiyyətinin seyrinə dalmış Əbədi, öz fəzilətini və əzəmətini nişan vermək üçün hissiyat və həzz qabiliyyətinə malik olan varlıqlar yaratmaq qərarına gəlir… belə məxluqlar hələ yox idi; Allah istədi və onlar oldular».[25] Volteri heyrətləndirən bu sətirlər əslində sonralar xristianlığın təhrif etdiyi, uzaqlaşmış olduğu təkallahlılıq mövqeyindən deyilmişdir. Bu ideyalar məhz islamda daha mükəmməl şəkildə əks olunur.

Lakin təəssüf ki, söhbət konkret olaraq islamdan gedəndə, Volter öz fəlsəfi düşüncələrini «unudaraq» ona hücuma keçir, onu «yalançı din», Həzrəti Məhəmmədi isə «yalançı peyğəmbər» adlandırır. Bu mövqe xüsusən fəlsəfə müstəvisindən «bədii yaradıcılıq» (əslində fantaziya, xülya) müstəvisinə keçərkən – «Məhəmməd» pyesində özünü göstərir. Heç bir tarixi fakta əsaslanmayan bu uydurmaları Papaya – XIV Benediktə hədiyyə göndərməsi də onun konyuktur və sırf ideoloji mövqedən yazıldığını göstərir.

Amma əlbəttə, bu mövqe heç də Qərbin bütün böyük şəxsləri tərəfindən bölüşdürülmür. Dövrün ən böyük fransızı Napoleon Bonopart əsərdən narazı idi. Şərqə münasibətdə İ.Götenin mövqeyi Napoleonu daha çox təmin edirdi. Napoleon Göteni qəbul edərkən ondan bu əsər haqqında münasibətini soruşur. Onu tamaşaya qoydursa da, müəllifin dünyanı fəth etmiş bir şəxsi ona layiq təqdim etmədiyini, onun haqqında mövqeyini bəyənmədiyini bildirir.[26]

Əlbəttə, Məhəmməd peyğəmbərin bir fateh kimi qiymətləndirilməsi ilə mübahisə etmək olar. Amma ömrünü dünyanın fəthinə həsr etmiş Napoleonun nəzərində fatehlikdən böyük missiya ola da bilməz.

Əslində söhbət Napoleonun islama və ya Məhəmməd peyğəmbərə münasibətindən getmir. Söhbət Volterdən, bir filosofun tarixə

---

[24] Yenə orada, səh.544.
[25] Yenə orada, səh.543.
[26] *Эмиль Людвиг.* Гёте. М., «Маладая гвардия», 1965, стр. 417-418.

münasibətdə öz fəlsəfi əqidəsindən uzaqlaşmasından gedir. Əlbəttə, Volter F.Bekonun, Monteskyenin və s. bu kimi sələflərinin ənənəvi münasibətini sadəcə davam etdirirdi. Lakin filosofluğun həqiqi missiyası ənənələrin fövqünə qalxmağı, həqiqəti dini təəssübkeşlikdən və konyunkturdan üstün tutmağı tələb edir.

***Volter* və *Göte*** – Qərb dünyasının iki böyük mütəfəkkiri və islama, Məhəmməd peyğəmbərə iki fərqli münasibət! Napoleonun tövsiyəsindən asılı olmadan, İ.V.Göte «Məhəmməd» mövzusuna onsuz da bağlı idi. Göte hələ 23 yaşında ikən Qurani-Kərimi D.F.Meqerlinin almancaya tərcüməsində oxumuş, bununla kifayətlənməyərək 6-cı surəni özü latıncadan tərcümə etmiş və elə bu illərdə «Məhəmməd» adlı dram əsəri üzərində işləmişdir. Sonrakı illərdə Məhəmməd peyğəmbər haqqında alman tədqiqatçıları tərəfindən yazılmış kitabları və Qurani-Kərimin digər tərcümələrini də diqqətlə oxumuş, özü bu mövzuda şeirlər və tədqiqat əsərləri yazmışdır.[27] Onun bu sahədə çoxlu sayda əsərlər yaratması, təkallahlılıq ideyasına, islama, peyğəmbərin həyatına dönə-dönə müraciət etməsi və bu mövzuları böyük sayğı və hətta məhəbbətlə qələmə alması heç də təsadüfi deyildi. Xristianlığa tənqidi münasibətini gizlətməyən İ.V.Götenin islama bu qədər böyük maraq göstərməsinin çox ciddi əsasları vardır. Həqiqət birdir və bütün dahilər irqi ayrıseçkiliyin və ideoloji çərçivələrin təsirinə düşmədikdə eyni nəticəyə gəlirlər. Təsadüfi deyildir ki, L.N.Tolstoyun da şərqə və islam dininə dərindən bələd olması, həqiqət axtarışındakı səmimiyyəti və qətiyyəti onu son nəticədə müsəlmanlığı qəbul etməyə gətirmişdi.[28]

Qərb mütəfəkkirlərinin islama münasibətdə iki fərqli mövqeyinin səbəbini araşdırarkən bu sualın İ.V.Göteni də düşündürdüyünü və buna ən yaxşı cavabın da məhz onun tərəfindən verildiyini görürük. O, «Məhəmməd» əsərində islamın əsaslarının və Qurani-Kərimin səthi, yoxsa dərindən öyrənilməsindən asılı olaraq ona münasibətin də müxtəlif olduğunu vurğulayır: «Bütün bunlar əvvəlcə bizi özündən itələyir,

---

[27] *И.В.Гете*. Западно-восточный диван. М., Наука, 1988, стр. 778-779.
[28] *Tolstoy*. Hz. Muhammed. İstanbul, Karakutu yayınları, 2005.

uzaqlaşdırır, sonra bizi cəlb edir, heyrətləndirir və nəhayət, ona hörmət-izzətlə yanaşmağa məcbur edir».[29]

Əgər Qərb fəlsəfəsində vahid din, dinlərin mahiyyətcə eyniyyəti, bir-birini tamamlaması və s. haqqında fikirlər olmuşdursa, bunlar da çox vaxt xristianlığın hind dini təlimləri ilə, brahmanizm, buddizm və s.-lə əlaqəsinin axtarılması şəklində ortaya çıxmışdır.

İslam haqqında səhv təsəvvür yaratmaq, onu dərindən mənimsəmədən inkar etmək ənənəsi, hətta xristianlığın başqa dinlərlə əlaqəsini üzə çıxarmaq istəyənlər üçün də səciyyəvidir. Yuxarıda biz Volterin xristianlığı brahmanizmlə və digər hind təlimləri ilə əlaqələndirmək cəhdini qeyd etdik. İndii isə bəzi müasir tədqiqatçıların bu istiqamətdəki fikrlərinə diqqət yetirək. Məlum olduğu kimi, XX əsrin böyük filosoflarından biri K.Yaspers R.Kiplinqin məşhur «Şərq həmişə Şərq olacaq, Qərb də – Qərb, və onlar heç vaxt uyğunlaşa bilməzlər» fikri ilə razılaşmamış öz təlimini Budda təlimi kontekstində nəzərdən keçirməyə çalışmış, Buddaya ayrıca əsər həsr etmişdir.[30] Lakin K.Yaspers də, görünür, islam dininin əsaslarına dərindən bələd olmadığından özünün «Şərq» anlamına ancaq hind-çin fəlsəfəsini daxil edir. Onun min illər ərzində bəşər tarixinə və düşüncəsinə ən çox təsir göstərmiş şəxsiyyətləri sadalayarkən Məhəmməd peyğəmbəri yada salmaması buna ən bariz sübutdur. O bu sırada ancaq dörd nəfəri: Sokratı, Buddanı, Konfutsini və İsanı qeyd edir. «Çətin ki, bu dərəcədə böyük tarixi gücə malik olan hansı isə beşinci nəfəri göstərmək mümkün olsun; həmin səviyyədə bu gün də aktual olaraq qalan heç kimi göstərmək mümkün deyil… Onlar bütün fəlsəfəyə fövqəladə təsir göstərmişlər.»[31] Halbuki, öz «tarixi gücünə» görə bu sadalanan şəxslərin heç biri Məhəmməd peyğəmbərlə müqayisə oluna bilməz. Bunu sadəcə biz demirik. Bunu K.Yaspersdən daha böyük nüfuz sahibi olan Qərb mütəfəkkirləri dönə-dönə etiraf etmişlər. Həm də bu sırada heç vaxt Sokrat olmamışdır. Görünür, K.Yaspers ideya tarixini ancaq Şərqin

---

[29] *И.В.Гете*. Западно-восточный диван, стр. 165.
[30] К.Ясперс. Будда// Западная философия: итоги тысячелетия. Екатеринбург, Бишкек. 1997, стр. 157-193.
[31] Yenə orada, səh. 154.

öhdəsinə buraxmamaq üçün buraya bir yunan da qatmağı lazım bilmişdir. Amma yunan filosofları çoxdur, onlardan hansını isə ayırıb peyğəmbərlər sırasına qoymaq üçün ən azı kafi əsas lazımdır. Daha böyük əsas isə məhz müasir dövrdə daha yaşarlı və cəlbedici olması ilə seçilən və ideya gücü getdikcə artan bir dünya dininin (bunları da biz yox, qərblilər özləri deyir)[32] təməlini qoymuş Məhəmmədi peyğəmbərlər sırasında göstərməyi «unutmaq» üçün lazımdır.

Başqa bir misal. Aleksandr Men iddia edir ki, əksər din və etiqadların əsaslarını özündə birləşdirən inteqrativ dini sistem yaratmaq cəhdləri əbəsdir, çünki xristianlıq özündə universal sintez imkanlarını ehtiva edir. Və onun bu ehtiva gücü təkcə Tövratı, yəhudi dinini deyil, həm də hind təlimlərini əhatə edirmiş.[33] Amma nə üçünsə bütün dinlər üçün əsas inteqrativ amil olan vəhdət, təkallahlıq ideyasının məhz xristianlıq tərəfindən təhrif olunması, unikal «üçlük» ideyasının heç bir dinlə uzlaşmaması «yaddan çıxır».

Təəssüf ki, bir çox Qərb filosofları təkcə islam dininə münasibətdə deyil, həm də islam dünyasının fəlsəfəsinə münasibətdə, yumşaq desək, etinasız münasibət bəsləmişlər. Hegel özünün fəlsəfə tarixinə dair üçcildlik mühazirələrində ərəb fəlsəfəsinə cəmi yeddi səhifə ayırır ki, onun da yarıdan çoxu yəhudi fəlsəfi fikrinə (Moisey Maymonid) həsr olunmuşdur.[34] Lakin yazdığı iki səhifədən aydın olur ki, onun orta əsr islam fəlsəfi fikir haqqında təsəvvürləri olduqca məhdud və qüsurludur. Hegel öz zəmanələrinin ən böyük filosofları Əl-Kindi, əl-Fərabi, İbn Sina, əl-Qəzali, İbn Rüşd haqqında – hamısına bir yerdə yeganə bir abzas həsr edir və burada onların ancaq anadan olduğu illəri, ancaq Aristotelin şərhçisi olduqlarını göstərir. Əlavə olaraq ancaq Fərabinin «Ritorika»nı 40 dəfə oxuyub doymamasından və yenə oxumaq istəməsindən, yaxşı iştahı olmasından bəhs etməsi[35] onun bu böyük fəlsəfi məktəb haqqında bilik dairəsinin miqyasından xəbər verir. Görünür, qüsurlu və sayğısız münasibət də qərəzdən daha çox,

---

[32] məsələn, bax: Sürdel …

[33] *А.Мень.* У врат молчания. – М., Эксмо, 2005, стр. 247.

[34] *Гегель.* Лекции по истории философии. Книга третья. Сочинения, Том ХЫ, М., Л., 1935, стр. 99-106.

[35] Yenə orada, səh. 105.

məlumatın az olmasından irəli gəlir. Yaxud Bertran Rassel yazır: «Ərəb fəlsəfəsi orijinal fəlsəfi sistem kimi əhəmiyyət kəsb etmir. Avisenna və Averoes kimi mütəfəkkirlər əsasən şərhçi olmuşlar… Onların baxışları məntiq və metafizika sahəsində Aristoteldən və neoplatoniklərdən, riyaziyyat və astranomiya sahəsində – yunan və hind mənbələrindən alınmışdır».[36] Lakin bu filosofların orijinal fikir sahibləri olduqlarını isbat etmək üçün hətta, başqa mənbələrə müraciət etməyə ehtiyac yoxdur, çünki B.Rassel özü bir az əvvəldə İbn Sinaya istinadən yazır: «Avisenna yeni bir formul kəşf etmişdi; onu sonradan Averoes və Böyük Albert təkrar etmişdilər: «Təfəkkür ümumini ayrıca şeylərdən hasil edir»… Avisenna göstərir ki, *genera*, başqa sözlə, universalilər eyni zamanda şeylərə qədər, şeylərdə və şeylərdən sonra mövcuddurlar».[37] Göründüyü kimi, B.Rassel orta əsr islam filosoflarının yaradıcılığı ilə Hegelə nisbətən daha yaxşı tanışdır. Lakin bununla belə, o, müsəlmanların nəzəri təfəkkür qabiliyyətinə şübhə etməkdən qalmır və onların yeganə xidməti olaraq sivilizasiyanın ötürücüsü rolunu oynadıqlarını göstərir.[38]

Bununla belə, XIX-XX əsrlərdə Qərb ölkələrində müsəlman filosofların təlimləri haqqında nisbətən daha geniş məlumat yayılmağa başlamışdır. Bu sahədə ən böyük xidmətlər Məhəmməd İqbala (1877-1937) məxsusdur. Onun 1908-ci ildə Kembric və Münxen universitetlərində «Persiyada metafizikanın inkişafı. Müsəlman fəlsəfəsi tarixinə töhfə» mövzusunda yazdığı doktorluq dissertasiyasında Qərbdə ilk dəfə olaraq İran-Azərbaycan bölgəsində yaranmış fəlsəfi təlimlər haqqında zəngin məlumat verilmişdir.

---

36 *Б.Рассел.* История западной философии. Том 1, Новосибирский 1994, стр.400.
37 Yenə orada, səh. 398.
38 Yenə orada, səh. 400.